# Nağdsız hesablaşmaların inkişaf etdirilməsi

*Son illər Azərbaycan Respublikasında Milli Ödəniş Sisteminin yaradılması məqsədilə elektron hesablaşma sistemlərinin işlənərək istifadəyə verilməsi istiqamətində islahatlar aparılır.*

Ölkədə nağd pul dövriyyəsinin miqyasının böyük olması iqtisadiyyatı, bank sisteminin maliyyə vasitəçiliyini əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Nağd pul dövriyyəsinin üstünlük təşkil etməsi bir sıra struktur problemlərinin, o cümlədən maliyyə intizamının pozulması, qeyri-mütəşəkkil pərakəndə ticarətin üstünlük təşkil etməsi və s. kimi problemlərin yaranmasına gətirib çıxarır. Bu problemlərin həlli ölkədə elektron ödəniş sistemlərinin pul dövriyyəsində rolunun artmasına və bank sisteminin ehtiyat mənbələrinin əhəmiyyətli dərəcədə genişlənməsinə şərait yaradır.

Nağd pul kütləsinin ümumi pul dövriyyəsində xüsusi çəkisi inkişaf etmiş ölkələrdə 7-10 faiz arasında olduğu halda, ötən ilin məlumatına əsasən, bu göstərici Azərbaycanda 50-55 faiz təşkil edib.

Son dövrlərdə Azərbaycan Respublikasında beynəlxalq təcrübə nəzərə alınmaqla nağdsız hesablaşmaların inkişafına yönəldilən bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir.

Bu sahədə qəbul edilən və nağd pul hesablaşmalarının məhdudlaşdırılması və nağdsız hesablaşmaların genişləndirilməsi məsələlərinin tənzimlənməsində əsas hüquqi akt Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 461-VQ nömrəli "Nağdsız hesablaşmalar haqqında" Qanunu olmuşdur.

Həmin Qanunda nağdsız hesablaşmaların mümkün formaları, yalnız nağdsız qaydada həyata keçirilən hesablaşmaların növləri, vergi ödəyicisi olmayan fiziki şəxslərdən nağd qaydada alınması mümkün olan malların siyahısı və ay ərzində aparılan nağd hesablaşmaların maksimal hədləri müəyyən olunmuşdur.

Qanunun 3.3-cü maddəsinə əsasən ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği otuz min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği on beş min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilə bilər.

Qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatları nağd qaydada həyata keçirən vergi ödəyicilərinə qarşı maliyyə sanksiyasının tətbiq olunması məqsədilə Vergi Məcəlləsinə 01.01.2017-ci il tarixindən 58.7-1-ci maddə əlavə olunmuşdur. Həmin maddəyə əsasən qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatların nağd qaydada həyata keçirilməsinə görə malı (işi, xidməti) təqdim edən vergi ödəyicisinə qanunvericilik pozulmaqla aparılan əməliyyatın ümumi məbləğinin təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Lakin, bununla yanaşı, sözügedən qanunun 3.3-cü maddəsində nəzərdə tutulan məhdudiyyətin yalnız ödənişi aparan vergi ödəyicilərinə şamil edilməsi, Vergi Məcəlləsinin 58.7-1-ci maddəsində nəzərdə tutulan maliyyə sanksiyasının isə yalnız mal (iş, xidmət) təqdim edən ödəyicilərə tətbiq olunması məsələsi ziddiyyət təşkil edir.

Bundan əlavə, həmin qanunun 3.4-cü maddəsində əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün




istənilən ayında (ayların) iki yüz min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər tərəfindən əmək haqlarının nağd qaydada ödənilməsi icazə verildiyi halda, 12 aylıq dövriyyəsi iki yüz manatdan artıq olmayan istehsal fəaliyyəti ilə məşğul olan ödəyicilərə belə hüquq verilməmişdir.

Eyni zamanda, İnzibati Xətalar Məcəlləsində və Cinayət Məcəlləsində aksiz markaları ilə markalanmalı olan məhsulların (malların) nağd qaydada satışının qarşısının alınması məqsədilə inzibati və cinayət məsuliyyətini nəzərdə tutan müvafiq maddələr nəzərdə tutulmuşdur.

Belə ki, İnzibati Xətalar Məcəlləsinin 450.2-ci maddəsinə əsasən pərakəndə satış istisna olmaqla, aksiz markaları ilə markalanmalı olan məhsulların (malların) nağd qaydada az miqdarda, yəni 50 manatadək satılması, belə məhsulların (malların) satış məqsədləri üçün nağd qaydada az miqdarda, yəni 50 manatadək alınması yüz manat məbləğində cərimə edilir.

Cinayət Məcəlləsinin 213-1.3-cü maddəsinə əsasən pərakəndə satış istisna olmaqla, aksiz markası ilə markalanmalı olan məhsulları (malları) nağd qaydada xeyli miqdarda, yəni 50 manatdan 1000 manatadək, satma, belə məhsulları (malları) satış məqsədləri üçün nağd qaydada xeyli miqdarda, yəni 50 manatdan 1000 manatadək, alma, min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bu əməllər külli miqdarda, yəni 1000 manatdan çox, törədildikdə iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Beynəlxalq təcrübədə də nağd hesablaşmaların minimuma endirilməsi məqsədilə belə hesablaşmalara qanunvericilikdə məhdudiyyətlər qoyulmuşdur. Belə ki, Qazaxıstanın qanunvericiliyinə əsasən hüquqi şəxslər arasında bir əqd üzrə nağd qaydada aparılan hesablaşmanın məbləğinin yuxarı həddi 3,9 mln. tenqe (26,0 min ABŞ dolları) həcmində müəyyən olunmuşdur. Hesablaşmanın bu həddən artıq olan məbləğləri yalnız nağdsız qaydada aparıla bilər. Hüquqi şəxsin bir əqd üzrə nağd qaydada apardığı ödənişin məbləği 3,9 mln. tenqedən (26,0 min ABŞ dolları) artıq olduqda, ona ödənişin 5%-i həcmində cərimə tətbiq olunur.

Rusiya Federasiyasının qanunvericiliyinə əsasən hüquqi və fiziki şəxslər tərəfindən bir müqavilə üzrə nağd qaydada aparılan hesablaşmaların maksimal məbləği 100,0 min rubl (3,4 min ABŞ dolları) təşkil edir. Bundan artıq məbləğdə nağd hesablaşma aparıldıqda, vəsaiti ödəyənə qarşı 40,0 min rubldan (1,3 min ABŞ dolları ) 50,0 min rubladək (1,7 min ABŞ dolları) cərimə tətbiq edilir. Eyni zamanda, normadan artıq məbləğdə nağd ödəmə aparan müəssisənin vəzifəli şəxslərinin də 4,0 min rubldan (130 ABŞ dolları) 5,0 min rubladək (170 ABŞ dolları) miqdarında cərimə olunmaları qanunvericilikdə nəzərdə tutulmuşdur.

Belarus Respublikasında təsərrüfat subyektləri arasında nağd qaydada aparılan hesablaşmaların maksimal məbləği 5,3 mln. Belarus rublu (1,7 min ABŞ dolları) təşkil edir.

Avropa ölkələrindən Bolqarıstanda nağd qaydada aparılan ödənişlərin maksimal məbləği 5,0 min levə (3,3 min ABŞ dolları) bərabərdir. Fransada fiziki şəxslərin 3,0 min avrodan (4,0 min ABŞ dolları) yuxarı bütün ödənişləri "Maliyyə Kodeksi"nə müvafiq olaraq yalnız nağdsız formada (çeklər, plastik kartlar, bank köçürmələri) aparılmalıdır. Bu şərtin pozulmasına görə 15,0 min avro (20,0 min ABŞ dolları) cərimə (yarısını alıcı, yarısını satıcı ödəməklə) nəzərdə tutulur. Hüquqi şəxslər üzrə hesablaşmalarda nağd ödənişlərin yuxarı həddi 1,1 min avrodur (1,4 min ABŞ dolları). Bu şərtin pozulmasına görə nağd ödənilən məbləğin 5%-i həcmində cərimə nəzərdə tutulmuşdur. Dövlət orqanları tərəfindən isə 3,0 min avrodan (4,0 min ABŞ dolları) artıq məbləğdə nağd şəkildə alqı-satqı əməliyyatlarının aparılmasına icazə verilmir.



Ofeliya Abdullayeva
"Dentons" şirkətinin Bakı idarəsinin Baş müşaviri

*Ofeliya Abdullayeva təhsilinə Azərbaycan Xarici Dillər Pedaqoji İnstitutunda başlamış, sonra Türkiyənin Bilkənt Universitetində, Moskva İqtisadiyyat və Hüquq Akademiyasında oxumuş və London İqtisadiyyat İnstitutunu bitirmişdir. Vergi, əmək, korporativ və daşınmaz əmlak qanunvericiliyi üzrə ixtisaslaşır, bundan başqa Azərbaycanda korporativ idarəetmə və əlaqədar məsələlər üzrə məsləhətlər təqdim etmişdir. 2000-2001-ci illər ərzində o, London ofisində işləmişdir. O, ABŞ-ın Azərbaycandakı Ticarət Palatasının Vegilər və Gömrük, habelə Kadrlar Komitələrinin üzvüdür.*
*O, "Who's Who Legal: CIS 2011" nəşri tərəfindən kommersiya sahəsində çalışan aparıcı hüquqşünas, "Legal 500" və "Best Lawyers" nəşrləri tərəfindən 2015-ci ildə Azərbaycan üzrə Bankçılıq və Maliyyə hüququ, Korporativ hüquq və Şirkətlərin Birləşməsi hüququ, habelə Məhkəmə Çəkişməsi və Vergi hüququ kateqoriyalarında "Ən Yaxşı Hüquqşünas" adına tövsiyyə olunmuş, həmçinin "Chambers and Partners" və "IFLR1000" nəşrləri tərəfindən "Aparıcı hüquqşünas" kimi qeyd edilmişdir.*



Sona Tağıyeva
"Dentons" şirkətinin Bakı idarəsinin Böyük hüquqşünası

*Sona Tağıyeva korporativ və kommersiya hüququ, habelə bank işi və maliyyə qanunvericiliyi, mübahisələrin həlli üzrə təcrübəyə malikdir. 2010-cu ilin yayında "Salans" şirkətinin Nyu-York ofisində çalışaraq, o, müxtəlif korporativ, birləşmə və satınalmalar, daşınmaz əmlak, əmlak və veraset məsələləri üzrə hüquqi məsləhətlər vermişdir.*
*Sona Tağıyeva Bakı Dövlət Universitetinin "Beynəlxalq Hüquq" ixtisası üzrə məzunudur, və 2005-ci ildə həmin Universiteti bakalavr, 2007-ci ildə isə - magistr (Beynəlxalq hüquq ixtisası üzrə) pilləsi üzrə və ABŞ-da San-Diyeqo Universitetində hüquq üzrə magistr pilləsində təhsilini başa vurmuşdur. O, Nyu-York ştatının vəkillər kollegiyasına 2011-ci ilin yanvar ayında qəbul edilib. Sona "IFLR1000" bütün nəşrləri tərəfindən "Yüksələn ulduz" kateqoriyası kimi qeyd edilmişdir.*




Aytən Namazova
"Dentons" şirkətinin Bakı idarəsinin Hüquqşünas köməkçisi

*Aytən Namazova korporativ, ekoloji, əmək, əqli mülkiyyət, rəqabət və inzibati qanunvericilik üzrə təcrübəyə malikdir. O, filial və yerli törəmə şirkətlərinin yaradılmasında müştərilərə hüquqi yardım, lisenziya və icazələrin alınması, onların müxtəlif dövlət idarəetmə və vergi orqanlarında qeydiyyata alınması, əmtəə nişanı və əqli mülkiyyət hüququ və digər müxtəlif hüquqi məsələlər üzrə ixtisaslaşır. Aytən Bakı Dövlət Universitetinin Hüquqşünaslıq fakültəsinin məzunudur.*